ŞABRAN BÖLGƏSİNİN FOLKLOR ƏNƏNƏLƏRİ

NADİROVA Samirə Nizami qızı
Azərbaycan Milli Konservatoriyasının magistrı
Ünvan: Ə.Ələkbərov küç. 7
E-mail: nadirovasamiraa@gmail.com
ORCID: 0009-0003-4102-6530

Elmi rəhbər: ***Lalə Hüseynova***
Əməkdar incəsənət xadimi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor

DOI: 10.62440/AMK2026-2.s.49-62

Xülasə: *Məqalədə Şabran rayonunun musiqi folkloru sistemli şəkildə araşdırılmış, tədqiqat əsnasında bölgəyə xas xalq mahnıları, rəqslər, mərasim və mövsüm nəğmələri, həmçinin instrumental ifaçılıq nümunələri toplanmışdır. Tədqiqat materialı "Çıraqqala" və "Xınayaxdı" folklor kollektivlərinin repertuarları, fərdi ekspedisiya zamanı əldə edilmiş nümunələr, mövcud məcmuələr və elmi nəşrlərdən ibarətdir. Araşdırmada empirik, müqayisəli-tarixi, deskriptiv, məlumat toplama metodları, həmçinin sahə müşahidəsi və müsahibə üsullarından istifadə edilmişdir. Nəticələr göstərir ki, Şabran folkloru mahnı-rəqs vəhdəti, xor ifası, mərasim, əmək və mövsüm ənənələrini, bölgənin etnomədəni xüsusiyyətlərini nümayiş etdirir və milli musiqi irsinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətlidir. Eyni zamanda, Şabran folkloru həm orijinal, həm də mövcud məcmuələrdə geniş yer almayan nümunələrlə zəngindir və əlavə toplama və tədqiqat işləri üçün geniş elmi perspektiv açır.*

Açar sözlər: *Şabran musiqi folkloru, xalq mahnıları, xalq rəqsləri, mərasim və mövsüm nəğmələri, instrumental ifaçılıq, əmək mahnıları, folklor kollektivləri, etnomədəni xüsusiyyətlər, Azərbaycan xalq musiqisi*

ФОЛЬКЛОРНЫЕ ТРАДИЦИИ ШАБРАНСКОГО РЕГИОНА

НАДИРОВА Самира Низами
Азербайджанская Национальная Консерватория, магистрант

Аннотация: *В статье системно исследован музыкальный фольклор Шабранского района, собраны и проанализированы характерные для региона народные песни, танцы, обрядовые и сезонные напевы, а также образцы инструментального исполнительства. Материал исследования включает репертуары фольклорных коллективов «Чыраггала» и «Хынайахды», образцы, полученные в ходе индивидуаль-*

ных экспедиций, а также существующие сборники и научные публикации. В исследовании использованы эмпирические, сравнительно-исторические, дескриптивные методы, методы сбора данных, а также полевые наблюдения и интервью. Результаты показывают, что фольклор Шабрана отражает единство песни и танца, хоровое исполнительство, обрядовые, трудовые и сезонные традиции, демонстрирует этнокультурные особенности региона и имеет важное значение с точки зрения сохранения национального музыкального наследия и передачи его будущим поколениям. В то же время фольклор Шабрана богат как оригинальными, так и мало представленными в существующих сборниках образцами, что открывает широкие научные перспективы для дальнейшего сбора и исследования.

Ключевые слова: *Музыкальный фольклор Шабрана, народные песни, народные танцы, обрядовые и сезонные напевы, инструментальное исполнительство, трудовые песни, фольклорные коллективы, этнокультурные особенности, азербайджанская народная музыка.*

FOLKLORE TRADITIONS OF THE SHABRAN REGION

NADIROVA Samira Nizami
Azerbaijan National Conservatory, Master's student

Abstract: *The article provides a systematic study of the musical folklore of the Shabran region, compiling and analyzing region-specific folk songs, dances, ritual and seasonal chants, as well as examples of instrumental performance. The research material consists of the repertoires of the “Chiraggala” and “Khinayakhdi” folklore ensembles, samples collected during individual field expeditions, as well as existing compilations and scholarly publications. The study employs empirical, comparative-historical, and descriptive methods, along with data collection techniques, field observations, and interviews. The findings indicate that Shabran folklore reflects the unity of song and dance, choral performance traditions, and ritual, labor, and seasonal practices, demonstrating the ethno-cultural characteristics of the region. It is of significant importance for the preservation of national musical heritage and its transmission to future generations. At the same time, Shabran folklore is rich in both original materials and samples that are underrepresented in existing collections, offering broad scientific prospects for further collection and research.*

Keywords: *Shabran musical folklore, folk songs, folk dances, ritual and seasonal chants, instrumental performance, labor songs, folklore ensembles, ethno-cultural characteristics, Azerbaijani folk music*

Rəyçilər:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova;
sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Manafova

Müasir etnomusiqişünaslıqda aktuallıq kəsb edən istiqamətlərdən biri də regional ənənələrin öyrənilməsi ilə bağlıdır. Azərbaycan folklorunun toplanması,

nəşr edilməsi və tədqiqi hələ XIX əsrdən başlayaraq filoloqlar tərəfindən inkişaf etdirilmiş, əsaslı nəticələr əldə edilmişdir. XX əsrin əvvəllərində dahi bəstəkar və musiqişünas alim Üzeyir Hacıbəyli tərəfindən musiqi folkloruna xüsusi diqqət göstərilmiş, ölkənin müxtəlif bölgələrinə ekspedisiya səfərləri təşkil edilərək xeyli sayda xalq mahnı və rəqsləri, təsnifləri, aşıq havaları, muğamlar nota yazılaraq çap olunmuşdur. Bu mənada Azərbaycanın qədim yaşayış məskənlərindən biri, iqtisadi, mədəni mərkəz kimi tarixdə iz qoymuş Şabranın musiqi folklorunun araşdırılması aktual mövzu kimi əhəmiyyətlidir. Mövzunun aktuallığını iki əsas amil üzrə əsaslandırmaq mümkündür. Bunlardan biri regional araşdırmalar nəticəsinə əldə edilən elmi yeniliklərin etnomusiqişünaslıq elminin inkişafına verdiyi töhfələrlə əlaqədardır. Hələ XX əsrin əvvəllərində Ü.Hacıbəyli öz elmi məqalələrində folklor irsinin toplanmasını mühüm hesab edərək öz həmkarlarını, tələbələrini, gənc bəstəkar və musiqişünasları bu işə cəlb etmişdi. 1932-ci ildə Bülbül Məmmədovun rəhbərliyi ilə fəaliyyətə başlayan Elmi Tədqiqat Musiqi Kabinetinin uğurlu fəaliyyəti nəticəsində yüzlərlə xalq musiqi nümunələri toplanaraq nota yazılmış, məcmuələr şəklində çap olunmuşdu. Bu irsin sənədləşdirilməsi onun qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Məqalədə aparılan təhlillər, Şabran folklor mühiti ilə bağlı təqdim edilən məlumatlar xalq musiqi yaradıcılığı, etnomusiqişünaslıq elmi ilə bağlı fənlərin tədrisində istifadə edilə bilər. Məqalədə regional araşdırmalarla bağlı elmi mənbələrə nəzər saldıqda əldə edilən mühüm nəticələrlə yanaşı, bir sıra bölgələrin daha az öyrənildiyini də görmək mümkündür. Bu baxımdan Şabranın musiqi folkloru az öyrənilmiş mövzular sırasında yer alır. Şabranla bağlı folklor araşdırmaları sırasında AMEA Folklor İnstitutu tərəfindən 2013-cü ildə nəşr edilmiş "Quba-Şabran folklor örnəkləri" (2013) kitabını qeyd etmək lazımdır. Antologiyada verilən xalq yaradıcılığı janrları, poetik mətnlər, xalqın dilindən çıxan rəvayət və əfsanələrin mövzusu, obraz dairəsi ilə bağlı əldə edilən məlumat Şabranla bağlı musiqi folkloru nümunələrinin incələnməsinə, bu yaradıcılıq sahələrinin bir-birilə sıx əlaqə və təsir xüsusiyyətlərini üzə çıxarmağa imkan verir.

Şabranın mədəni mühiti ilə bağlı araşdırmalardan biri də Zakir Bayramlıya məxsusdur. "Dünyaya açılan pəncərə" (Bayramlı, 2017) adlı monoqrafiya 2017-ci ildə çap olunmuşdur. Müəllif kəndin folklor mühitinə nəzər salaraq, lətifələri, rəvayətləri haqqında qeydlər etmişdi. Kitabın ən əhəmiyyətli hissəsi isə Dağbilici kəndinin folklor mühitini ən parlaq şəkildə əks etdirən "Xınayaxdı" Folklor Xalq Kollektivinə həsr edilmiş bölməsi (Bayramlı, 2017: 75) ilə əlaqədardır. Bu bölmədə kollektivin yaranma tarixi, repertuarı, üzvləri, əldə etdiyi nailiyyətlər, təltif edildiyi mükafatlar təqdim olunur.

Qeyd etmək lazımdır ki, Şabranın bilavasitə musiqi folkloru ilə bağlı mənbələr azlıq təşkil edir. Bu sahədə görülən işlər sırasında Azərbaycan Milli Konservatoriyasının musiqişünas tələbələrinə məxsus magistr dissertasiyalarını qeyd

etmək olar. Zülfiyyə Hüseynova (Hüseynova, 2009), Xəyalə Hüseynova (Hüseynova, 2013) və Mənsurə Quliyeva (Quliyeva, 2019) tərəfindən həyata keçirilmiş bu araşdırmalarda Şabran və onun kəndlərindən əldə edilmiş musiqi folkloru materialları toplanıb yazıya alınmış və təhlilə cəlb edilmişdir. Qeyd edilən bütün mənbələr Şabranın musiqi folklorunun öyrənilməsi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Bölgənin folklor ənənələrinin öyrənilməsi üçün etnomusiqişünaslıq elminin bir sıra metodlarına müraciət edilmişdir. Bu metodlar sırasında autentik folklorun araşdırılmasında ən çox tətbiq edilən empirik metod mühüm yer tutur. Tədqiqatda həmçinin müqayisəli-tarixi, deskriptiv (təsviri), məlumat toplanması və təhlil metodlarından, həmçinin sahə müşahidəsi və müsahibə üsulundan istifadə edilmişdir. Təqdim edilən məqalənin əsas elmi yeniliyi heç bir zaman təhlil olunmamış nümunələrin tədqiqata cəlb olunmasıdır.

Şabran folkorunun özünəməxsus cəhətlərinin aşkara çıxarılması üçün Azərbaycan musiqi folkloru, xalq musiqisinin müxtəlif sahələri ilə bağlı elmi tədqiqatlara üz tutaraq Üzeyir Hacıbəylinin, Məmməd Saleh İsmayılovun, Rauf İsmayılzadənin, Bayram Hüseynlinin, Əhməd İsazadənin və başqa alimlərin əsərlərində xalq musiqi janrlarının tipoloji xüsusiyyətləri, təsnifat meyarları və s. məsələləri ehtiva edən əsas müddəalara istinad edilmişdir. Mühitin regional folkloru ilə bağlı məlumat və təhlil materiallarının toplanması etnomusiqişünaslığın tələb etdiyi kimi, folklorun mühit daxilində öyrənilməsi prinsipi üzrə həyata keçirilmişdir.

Şabran haqqında tarixi məlumatlar VI əsrin I yarısına qədər gedib çıxır. Tarixçilər Şabran ərazisində Azərbaycanın Şirvanşahlar dövlətinin yaranmasını məhz bu dövrə aid edir. Şabran adına və onun bir sıra variantlarına (Şaporan, Şabiran, Sabiran) bir çox tarixçi alimlərin, səyyahların əsərlərində rast gəlinir. Şabran adının mənası isə şab – gecə, ran isə rəvan, düz yer kimi izah edilirdi. Bunun səbəbini isə Şabranın ticarət yolunun üstündə yerləşməsi, bu ərazidən keçən karvanların mütəmadi olaraq təhlükəsiz yer kimi burada gecələmələri ilə bağlayırlar (Sultanova, 2011: 8).

Şabran tarixin müxtəlif mərhələlərində inkişaf etmiş mühüm ticarət mərkəzlərindən biri olmuş, buraya dünyanın hər yerindən tacirlər gəlmişlər. Tarixi mənbələrdə göstərilir ki, Şabran Azərbaycanda kanalizasiya sisteminin ilk tətbiq edildiyi qədim şəhər olmuşdur (Bayramlı, 2017: 36). Bu şəhərin daha bir əhəmiyyəti isə onun hərbi strateji mövqedə yerləşməsi idi: “*Şabranın ətraf ərazilərində Çıraqqala, Gilgilçay və Boyat kimi hərbi istehkamlar da mövcud olmuşdur*” (Bayramlı, 2017: 37).

Şabran Çar Rusiyasının tərkibində olduğu illərdə Quba əyalətinə daxil olan səkkiz mahaldan biri idi. İndiki Şabranın ərazisində əvvəllər Həftəbazar adlanan böyük bazar fəaliyyət göstərmişdi. Tədricən öz ərazisini və fəaliyyətini genişləndirən bazar zamanla burada məskunlaşan sənətkar ailələri ilə yaşayış məkanına çevrilir. Sonralar bu bazar Dəvəçibazar adlandırılmağa başlayır. Qeyd edək ki,

Şabran 2010-cu ilə qədər Dəvəçi adlanıb. Həmin il prezident İlham Əliyevin sərəncamı ilə şəhərə öz tarixi adı qaytarılıb. Hazırda Şabran rayonu bir şəhər və on altı kənddən ibarətdir. Burada yaşayan əhali iki dildə – Azərbaycan və tat dillərində danışır. Təsadüfi deyil ki, topladığımız folklor materiallarının bir qismi də məhz tat dilində əldə edilmişdir. Beləliklə, Şabran rayonunun qədim tarixi və mədəni kökləri bizə bu regionun folklorunu araşdırmaq və tədqiq etmək üçün mühüm bir zəmin yaradır. Qeyd etmək lazımdır ki, regional folklorun toplanması və tədqiqi ilə bağlı son illərdə mühüm addımlar atılmaqdadır. Xüsusilə AMEA Folklor İnstitutunun həyata keçirdiyi böyük layihələr, o cümlədən Azərbaycan folklor antologiyası çoxcildliyi, Qarabağ folkloruna həsr edilən çoxcildliklər, eləcə də "Ənənəvi musiqi atlası" layihəsi, rayon və kəndlərə təşkil edilən müasir ekspedisiyalar, diplom və magistr işlərində müəlliflər tərəfindən fərdi şəkildə toplanaraq təhlilə cəlb edilən folklor nümunələri mühüm nailiyyətlər sırasında yer alır.

Eyni zamanda regional folklorun öyrənilməsinə etnomusiqişünaslıq elminin müasir inkişaf istiqamətləri də mühüm təsir göstərmişdir. Xüsusilə, gənc musiqişünasların Azərbaycanın müxtəlif bölgələri ilə bağlı folklor materialının toplanmasında iştirakı və tədqiqat aparmasını misal göstərmək olar. Son illərdə Şəki, Qarabağ, Naxçıvan, Qax, Quba, Lerik, Masallı-Astara, Abşeron, Şirvan və s. bölgələrlə bağlı xeyli sayda diplom və magistr buraxılış işləri yazılmış, toplanmış not nümunələri təhlil edilmişdir. Bu işlərdə yer alan xalq mahnı və rəqsləri, layla, bayatı, mərasim musiqisi və s. folklor irsini yeni nümunələrlə zənginləşdirmişdir. Aparılan tədqiqatların nəticələri, toplanan nümunələrin daha çox orijinal materialı ehtiva etməsi bir daha göstərir ki, folklor irsi hələ də öz zənginliyini qoruyub saxlayır və yeni toplama işləri, tədqiqatlar üçün perspektiv təşkil edir.

Milli adət-ənənələr və folklor musiqisi hər bir xalqın simasının güzgüsüdür, xalqın tarixi yaşam tərzidir. Hər bir xalqın milli adət-ənənələri qədim olmaqla yanaşı, tarixi ictimai-siyasi amillərə əsaslanmaqla inkişaf etmiş, mədəni irs kimi bu dövrə qədər gəlib çatmışdır. Xalqımızın həyatında mövcud olan bu adət-ənənələr milli-mənəvi dəyərlərimizdir. Tarixi "Kitabi-Dədə Qorqud" dastanına nəzər salarkən buna bir daha əmin oluruq.

Şabran rayonunun folklor örnəkləri ilə geniş şəkildə 2013-cü ildə çap olunmuş "Quba-Şabran folklor örnəkləri" (Quba-Şabran folklor örnəkləri, 2013) kitabında tanış olmaq mümkündür. Lakin burada folklor örnəklərinin yalnız poetik və nəsr materialı öz əksini tapmışdır. Şabranla bağlı musiqi folklorunun öyrənilməsi nisbətən az rast gəlinsə də, ayrı-ayrı tədqiqatlarda bu ərazi ilə bağlı nümunələr toplanaraq təhlilə cəlb edilmişdir.

Şabranın folklor mühiti əsas etibarilə xalq mahnı və rəqslərini, mərasim nəğmələrini, instrumental ifaçılığı (zurna-balaban) ilə bağlı yaradıcılıq sahələrini özündə birləşdirir. Fərdi eskpedisiya səfərlərindən topladığımız nümunələr əsasında söyləyə bilərik ki, bu mühitdə xalq mahnı və rəqslərinə geniş yer verilir.

Həmin nümunələrdən bir qismini toplayıb notlaşdıraraq təhlilə cəlb etmişik. Onların sırasında mahnı-rəqs kimi bu günümüzə gəlib çatmış nümunələr də yer alır. Şabranda qədim tarixə malik olan mərasim folkloru da yaşamaqdadır. Xalqın mədəni həyatında mühüm rol oynayan müxtəlif mərasimlər, el şənlikləri və burada ifa edilən folklor nümunələri rayonda fəaliyyət göstərən kollektivlərin də repertuarını təşkil edir. Əldə etdiyimiz folklor nümunələrinin əksəriyyəti bilavasitə bu kollektivlərin ifasından yazıya alınmış və notlaşdırılmışdır.

Şabranda hazırda iki folklor kollektivi fəaliyyət göstərir. Onlardan biri olan “Çıraqqala” zurnaçılar kollektivini xüsusilə qeyd etmək lazımdır. Bu kollektiv 1956-cı ildə yaradılmışdır. Kollektivin repertuarında Şabran və ümum Azərbaycan folkloruna məxsus xalq mahnı və rəqsləri yer alır. Uğurlu çıxışları ilə tamaşaçıların böyük məhəbbətini qazanmış bu kollektiv nəinki Azərbaycanda, həmçinin dünyanın bir çox ölkələrində, o cümlədən Türkiyədə, Hindistanda keçirilən folklor festivallarında xalq musiqimizi təmsil etmişlər. Bu sahədə göstərdiyi xidmətlərə görə “Çıraqqala” kollektivi dövlət tərəfindən yüksək qiymətləndirilərək 1987-ci ildə “Xalq kollektivi” fəxri adına, eləcə də bir çox diplom, fəxri fərman və pul mükafatlarına layiq görülmüşdür. Hazırda kollektivin 14 üzvü var və ona Əməkdar mədəniyyət işçisi Rasim Ağasızadə rəhbərlik edir. O, bütün həyat və yaradıcılıq yolunu xalq musiqisinin təmsil və təbliğinə həsr etmiş, 1970-ci ildən Mədəniyyət evində fəaliyyət göstərən müxtəlif dərnəklərdə iştirak etmişdir. R.Ağasızadə həmçinin 80-ci illərdə Respublika nəfəs alətləri müsabiqəsi və Ümumittifaq Festivallarında laureat olmuş, 2017-ci ildə isə ona “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilmişdir. Qeyd edək ki, R.Ağasızadə el sənətkarı Ağası Ağasızadənin oğludur və atasından öyrəndiyi xalq musiqi nümunələrini kollektivin repertuarına daxil etmişdir. A.Ağasızadə bu kollektivin ilk rəhbəri olmuşdur. O zaman kollektivin yeddi nəfər üzvü var idi və onların sırasında Saməddin Vahabov, Sabir Səfərov, Əhməd Ağasıyev, Ömər Əkbərov və Əlibaba Mürsəlov kimi musiqiçilər fəaliyyət göstərmişdi. “Çıraqqala” kollektivi Şabranda keçirilən el şənliklərində, Novruz bayramı ilə əlaqədar təşkil edilən dövlət tədbirlərində böyük şövqlə çıxış edir. Kollektivin repertuarını “Şabran yallısı”, “Şabran təranələri”, “Mayili”, “Dəvəçi baharı”, “Dəvəçi rəqsi”, “Dədə Ağası”, “Kələbəki”, “Şabran rəqsi”, “Mülayim”, “Çıraqqala” və s. kimi xalq havaları təşkil edir. Kollektiv öz adını Şabran ərazisində yerləşən və tarixi III-V əsrlərə aid edilən “Çıraqqala”dan götürmüşdür (“Xınayaxdı” folklor kollektivi. 05.22.2026).

Şabranda fəaliyyət göstərən ansambllardan biri də “Xınayaxdı” folklor ansamblıdır. Dağbilici kənd Mədəniyyət evində 1986-cı ildən fəaliyyət göstərən “Xınayaxdı” Folklor xalq kollektivinə son 40 il ərzində Bayram Əjdər oğlu Ağasıyev rəhbərlik edir. İlk zamanlar Xalq artisti, tanınmış rəqqas Böyükağa Məmmədovun rəhbərlik etdiyi ansamblda tar ifaçısı kimi çalışan Bayram Ağasıyev daha sonra musiqi müəllimliyi üzrə təhsil almışdır. Xalq yaradıcılığına böyük önəm verən B.Ağasıyev 1979-cu ildə Dağ Bilici kənd mədəniyyət evində folklor

ansamblı yaratmış və doğma elini qarış-qarış gəzərək el ağsaqqallarından, ağbirçəklərindən bildikləri, eşitdikləri xalq nəğmələrini, folklor nümunələrini toplamağa başlamışdı. Azərbaycan folklor irsimizə verilən bu mühüm töhfələr həm də kollektivin heyəti tərəfindən səhnələşdirilərək el şənliklərində, bayram və tədbirlərdə göstərilməyə başlamışdı. Kollekitv zəngin repertuarla müxtəlif folklor festivallarında, müsabiqələrdə uğurlu çıxışları ilə yadda qalmış, sənət nümayəndələri, münsiflər tərəfindən yüksək qiymətləndirilmişdir. Kollektivin tərkibi 14 nəfərdən ibarətdir. Bu yaradıcı heyət Azərbaycan mədəniyyətinə göstərdikləri dəyərli xidmətə görə 1986-cı ildə "Xınayaxdı folklor kollektivi" adını qazanmışdı. Növbəti ildə öz uğurlu çıxışları və səmərəli yaradıcı fəaliyyətinə görə kollektivi "Xalq yaradıcılıq festivalı"nın laureatı adını qazanmışdı. Bu festival SSRİ Həmkarlar İttifaqı, SSRİ Xalq Nailiyyətləri Sərgisi, SSRİ Kinematoqrafiya Komitəsi və SSRİ Bəstəkarlar və Yazıçılar İttifaqlarının birgə təşkilatçılığı ilə baş tutmuşdu.

1996-cı ildə "Xınayaxdı folklor kollektivi" uğurlu çıxışlarına görə "Xalq kollektivi" adını qazanmışdır. Sonrakı illərdə "Doğma diyar" devizi altında keçirilən folklor festivallarında bu kollektiv dəfələrlə fəxri diplomlarla təltif edilmişdi. 2015-ci ildə "Şəki-VI İpək Yolu" Beynəlxalq Musiqi Festivalında uğurlu çıxışına görə "Xınayaxdı Xalq Kollektivi" Şəki şəhər İcra Hakimiyyətinin xüsusi hədiyyələri və albomlarla mükafatlandırılmışdı (Hacılı, 2010). Bundan başqa kollektiv Bakı şəhər Beynəlxalq Multikulturalizm Mərkəzinin "Təşəkkürnamə"si, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Quba-Xaçmaz zonası üzrə Gənclərin Folklor Festivalında uğurlu çıxışlarına görə "Fəxri Fərman"la təltif edilmişdir.

"Xınayaxdı" kollektivinin repertuarında yer alan folklor nümunələri televiziya məkanlarında da dəfələrlə göstərilmiş, eləcə də F.Xalıqzadə, C. Mahmudova, A.Ramazanova, A.Mustafayeva, Nübar Mürsəl qızı kimi musiqişünas və folklorşünas alimlərin diqqətini cəlb etmişdi. Musiqişünas tələbələr Z.Hüseynova, X.Hüseynova, M.Quliyeva kollektivin ifasında topladıqları materiallar əsasında diplom işləri yazmışlar. Kollektivin repertuarında "Hobelə-Hobelə", "Qara birçək telli gəlin", "Həzrə yoluyla", "Mehrac", "O tayda topla satılır", "Bağı-bağı", "Ay gəlin", "Biçinçi", "Gülbaşmaq", "Mübarək", "Şabran eli", "Gülcə qızı", "Gözəlləri ay parçası", "Altun üzük", "Yel baba", "Göy səməni", "Gəlin xoş getdin", "Biçinçi-yallı nəğməsi", "Bir lavaş bişirək", "Uzana xanım", "Məscid altdan yolu var oğlanın", "Ay gülüm", "Yar mənimdir, sənə nə", "Şumla yeri" , "Bulağa gəlin gəlir", "Ellərə bahar gəlir" yallısı, "Gəlin gətirdi" zurna havası, "Güləş rəqsi", "Avara koxa" və onlarla nəğmə və rəqslər yer alır.

Şabran rayonunun folklor mühitini əks etdirən hər iki kollektivin repertuarında yer alan nümunələrin incələnməsi deməyə əsas verir ki, burada əhalinin əsas məşğuliyyətləri əsasında yaranan əmək mahnıları, eləcə də el şənliklərində səslənən mahnılar, rəqslər geniş yer tutur. Bununla yanaşı, adlarını çəkdiyimiz bu ansamblların təqdimatında müxtəlif mərasimlərlə bağlı səhnələr, xalq teatrına aid

olan müxtəlif tamaşalar yer alır. Buna misal olaraq “Kosa-kosa”, “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş”; milli oyunlardan isə “Yoldaş səni kim apardı”, “Bənövşə”, “Gizlənpaç”, “Mərə”, “Tırna” və s. kimi nümunələri göstərmək olar. Bu tamaşaları təşkil edərkən kollektiv rəhbəri rayonun yaşlı sakinlərindən aldığı məlumatlardan bəhrələnir.

“Göy səməni nəğməsi” Azərbaycan folklorunda yalnız “Xınayaxdı” folklor kollektivinə məxsus olan bir nəğmədir. Novruz bayramına 15-20 gün qalmış səmənini cücərməyə qoyub, bayrama iki gün qalmış isə bütün bacarıqlı qız-gəlinlər bir evə toplanaraq həmin səmənilər əzib suyunu çıxarır və böyük qazana əlavə edirdilər. Bişirilən səməni horrası bütün kəndə, el-obaya paylanılır. Səməni bişirilən zaman və tamamlanıb bütün el-obaya paylanandan sonra, tanrıya şükür etmək məqsədilə dua şəklində xorla birlikdə nəğmə oxunur. Nəğmə ikisəsli ifa edilməklə Dədə Qorqud, Tanrı ilə əlaqələndirilir. Tamaşada “Dədə, səməniyə əl tut” deyilir, Dədə isə öz növbəsində Allahdan xalqımıza sülh, dinclik, əmin-amanlıq, ruzi-bərəkət diləyərək səslənir: “Ay camaat, artıq Novruzdur! Təbillər gurlansın, tonqallar qalansın!” Sonra isə folklor kollektivinə məxsus olan “Bahar gəlir” yallısı səslənir.

“Tanrı eşitsin məni” misrasında camaat Novruza, yeni günə salamat şəkildə qovuşduqları üçün Tanrıya Şükür edirdilər. Nəğmə ifa olunan zaman mövzuya uyğun olaraq bayatı formasında səməninin bişirilib paylanması səhnələşdirilmiş formada vəsf olunur. Bundan əlavə səməni bişirilən zaman unudulmuş el nəğmələrindən biri olan “Yaşıl yarpaq qızılgül” nəğməsini folklor xalq kollektivi səhnələşdirib bərpa etmişdir. Evlənmə və toy mərasimləri ilə əlaqədar “Gəlini al gətir”, “Məscid altdan yolu var oğlanın”, “Ay gülüm”, “Bulağa gəlin gəlir”, “Mübarək” nəğmələrini və s. Xınayaxdı folklor kollektivinin repertuarında videolent çəkilişlərinə heyranlıqla seyr edilir. Matəm, yas mərasimləri də mövcuddur ki, burada şivələr, ağılar söylənilir.

Keçmişdə payız, yaz-yay aylarında taxıl əkmək, taxıl biçmək, hədik asmaq, ərişdə bişirmək, səməni qoymaq və s. kimi bu cürə mövsümi tədbirlər ruzi-bərəkət bayramları sayılardı. Daimi xarakter almış bu mərasimlər el bayramları səviyyəsində əsasən qəsəbə, böyük və kiçik kəndlərdə qeyd edilmiş və bu bayramlar daima el nəğmələri, rəqslər, aşıq musiqisi, təcnis-təsnif, muğam, diringi və yallılarla müşayiət olunmuşdu. Buna misal olaraq “Xınayaxdı” folklor xalq kollektivinin repertuarından “Çək şumla yeri” xalq nəğməsi üzərində dayanmaq istərdik. Bu nəğmə əkinçilik mədəniyyəti ilə əlaqədardır. Keçmişdə əkinçilik ilə məşğul olan kəndlərdə öküz saxlayıb bəsləmək xüsusi dəbdə olan kənd işi idi. Elə kəndçi olurdu ki, iki və daha çox öküzü olardı. Elə kəndçi də olardı ki, tək bir öküzü varmış. Kəndlilər xış ilə yeri şumlayarkən, toxum səpib mala vuran zaman bir-birlərindən öküz alar, öküzləri növbəli şəkildə işlədər və bir-birinə köməklik göstərərdilər. Bu həmçinin öküzlərin taqətdən düşməməsi üçün, növbəli istirahətlərinin təşkil edilməsi üçün idi. Kəndlilər (“rəncibərlər” - əsasən ciddi

əkinçiliklə məşğul olan bacarıqlı adamlara deyərdilər) diringəyə yığışan zaman bir-birindən öküz istəyəndə cavabları bu olardı: "Mənim öküzüm şota gedər", yəni öküzü işdədir, iş ağzındadır. Digəri "Mənim öküzüm ota gedər" – deməklə bildirmək istəyirdilər ki, kiminsə öküzü istirahətdə və yaxud da iş növbəsindədir. Dincə dayanmış öküzü verməyəndə heç bir qonşu, yəni kömək istəyən adam bundan inciməzdi. İnsanlar öküzlərdən ağır zəhmətdə istifadə etmələrinə baxmayaraq, onlara xüsusi qayğı göstərməyi də unutmurdular. Sonluqda şota gedər, ota gedər, dincə dayanar, sarı öküzüm, qızıl öküzüm, ho de e..! paho..! sözləri qızgəlinlərin, oğlanların dilində zərbi-məsəllərə çevrilər, zarafatyana bəhri-təbillər, atmacalar, yanıltmaclar, qoşma və nəğmələr qoşardılar. Misal üçün yavaşca "Segah" muğamının sədaları altında nəğmə oxuyanların arasından biri bərkdən tapmaca deyərdi. Açması budur ki, kimin malı öküzü varsa qolu canlılar, köməyə gəlmək istəyən, köməyə gəlsin. Nəğmənin ifası ərəfəsində həmçinin əkinçi öküzünə yalvarır, çək şumla yerimi, ölmə yazığam, dost-düşmən qarşısında məni xar etmə, taxılımızı əkib qurtaraq deyərək "Çək şumla yeri" nəğməsini oxumağa başlayardılar. Onu da qeyd edək ki, "Xınayaxdı" folklor xalq kollektivinin tərkibi tatlardan ibarət olduğu üçün həmin bu nəğməni tat dilində ifa edirlər.

Mövsüm və mərasim nəğmələrindən digəri "Yel baba" nəğməsi barəsində danışmaq istərdik. Hər bir mövsümdə taxıl əkilib qurtarandan sonra, insanlar taxılın cücərməsi üçün yağışın yağmasını arzulayırdı. Ona görə də onlar küləklər Allahı "Yel baba"ya dua edib, dumanı-çəni gətirməklə yağış yağdırmasını xahiş edərdilər. Yağışı istəməkdən əlavə sonluqda isə nəğmənin ifasından göründüyü kimi, xırmanda yığılmış taxılı buğdanı samandan ayırmaq üçün yel babaya ehtiyac duyulur. "Heyva, narın iyi gəlir", "Əs ay gilavar, gilavar" yəni artıq meyvələr yetişib, taxılı xırmandan yığıb qurtarmaq lazımdır. Yəni yel babadan köməklik göstərməsini diləyirlər. Nəğmənin musiqisini kollektiv özü tərtib edib.

Əmək prosesi və mövsüm mərasimi ilə bağlı əldə etdiyimiz rəqslərdən biri də "Xırmançı rəqsi"dir. İnformant B.Ağasıyevin söylədiyinə görə bu nümunə də ilk dəfə ekspedisiya zamanı bizə təqdim olunmuşdur. İnformantın öz atasından eşitdiyi və uşaq yaşlarında bilavasitə iştirak etdiyi buğda döyülməsi ilə əlaqədar keçirilən məhsul bayramında ifa edilən bir rəqsdir: "*Mən 1957-1958-ci illərdə uşaq olarkən atam briqada rəhbəri olub. Məni özü ilə xırmana aparıb. Xırmanda buğda məhsulunu döyüb qurtarandan sonra aş və yaxud ətli xörəklər bişirilərdi. Zəhmətkeşlər toplaşıb bişirilən yeməkləri yeyər, şənlənib bayram edərdilər. Bu rəqsi Şirvan mahalında ustad zurna ifaçısı Lazım Aslanovun ifasında həmin xırmanda keçirilən bayramlarda eşitmişəm və xırmançılar rəqs edib oynardılar. Bu rəqsi toylarda da həmin ustadın ifasında 15-16 yaşım olanda dəfələrlə eşitmişəm, toylarda da deyirdilər ki, xırmançılar gəldi onların havasını çalın...*" (B.Ağasiyev, şəxsi ünsiyyət, 14 fevral 2024). Maraqlı fakt kimi tədqiqata cəlb etdiyimiz bu məlumat onu deməyə əsas verir ki, təhlil etdiyimiz rəqs nümunəsi bilavasitə əmək prosesi ilə bağlı yaranıb və sonradan sevilərək el şənliklərində ifa edilib.

“Xırmançı rəqsi” digər rəqs nümunələrinə nisbətən həcmcə daha qısadır. Rəqsin tempi olduqca itidir, rast məqamına əsaslanır və burada “Mahur” muğamının intonasiyaları özünü göstərir.

Nümunə №1. “Xırmançı” rəqsi – ənənəvi variant (Nota yazan: B.Ağasiyev)



İnformantımız bu rəqsin bəzi ifaçılar tərəfindən “Köhnə Qars”, “Əkinçi rəqsi” kimi adlandırılması ilə bağlı fikirlər də söylədi. Lakin mövcud məcmuələrdə yer alan “Qars” adlı rəqslərin musiqi məzmununa nəzər salıb belə qənaətə gəldik ki, “Xırmançı” rəqsi orijinal bir nümunədir və adıçəkilən rəqslərin variantı və ya digər versiyası deyildir. Variantlıq məsələsinə gəlincə isə, nəzərə almaq lazımdır ki, xalq musiqisinin digər janrları kimi, rəqslər də müxtəlif bölgələrin folklorunda fərqli adlarla ifa olunur. Bəzən mahnılar rəqs kimi, bəzən də, əksinə təqdim oluna bilər. Bir-birinə keçən janr nümunələri artıq elmi ədəbiyyatda kifayət qədər tədqiqata cəlb edilib. Bu faktları nəzərə alsaq “Xırmançı” rəqsinin də fərqli variantlarının mövcud olması ehtimalı mümkündür. Lakin biz fərqli adla rəqsin musiqi məzmununu təkrarlayan hər hansı bir nümunəyə rast gəlmədik. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan folklor irsi zəngindir və onun toplanması, tədqiqi hər zaman yeni perspektivlər vəd edir.

Müxtəlif mənbələrdən əldə etdiyimiz və fərdi ekspedisiyalarda informantların bizə verdiyi məlumatlar Şabran folkloru əsasında müəyyən nəticələrə gəlməyə əsas verir. İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycan musiqi folkloru irsinin toplanması və nəşr edilməsi ilə bağlı mövcud materiallarda Şabranla bağlı nümunələr azlıqdadır. Məsələn, mövcud mənbələrdən biri, “Quba-Şabran folklor örnəkləri” kitabında Şabranla bağlı çox az nümunə verilmişdir. Kitabda yer alan folklor örnəklərinin əksər hissəsi Quba və onun kəndlərindən əldə edilmişdir. Bundan başqa sırf Şabrana məxsus mahnı və rəqslərlə bağlı da mövcud məcmuə-

lərdə hər hansı nümunələrə rast gəlmədik. Yalnız bir neçə rəqsin not yazısı və mənşəyi ilə bağlı məlumat ("Çıraqqala" rəqsi, "Dəvəçi baharı", "Çıraqqala" cəngisi) R.Bəhmənlinin "Azərbaycan qədim xalq rəqs havaları" kitabında verilmişdir (Bəhmənli, 2018: 80).

Şabran folkloru ilk növbədə xalq mahnı və rəqsləri, rəqs-tamaşalar, mahnı-rəqslər, sözlü yallılar, instrumental rəqs havaları kimi nümunələrlə təmsil olunur. Musiqi nümunələrinin bir qismi də bilavasitə mərasim folkloru ilə bağlıdır. Bu irsin yaşadılması bölgədə uzun illərdir fəaliyyət göstərən "Çıraqqala" və "Xınayaxdı" folklor kollektivlərinin fəaliyyətində öz əksini tapır. Hər iki kollektivin repertuarını xalq musiqi örnəkləri təşkil etsə də, "Çıraqqala" ansamblı əsas etibarilə instrumental ifaçılardan təşkil olunduğu üçün, onların repertuarında Şabran rəqsləri geniş yer tutur. "Xınayaxdı" folklor kollektivinin repertuarı isə daha geniş və əhatəlidir. Bu kollektivin repertuarında yuxarıda adlarını sadaladığımız bütün növ folklor nümunələri yer almışdır. "*Folklor xalq kollektivi B.Ağasıyevin rəhbərliyi ilə AzTV, İTV, Lider, ANS, ATV, ARB, RTR, Xəzər, Space, Türkiyənin TRT Avaz və başqa televiziya kanallarında dəfələrlə konsert proqramları ilə çıxış etmiş, milli adət-ənənələrimizə həsr olunmuş müxtəlif verilişlərə çəkilmişdir*" (https://multikultural.az/az/medeni-muxteliflik/122/tat-folklorunun-izi-ile/). Bu kontekstən çıxış edərək KİV vasitəsilə B.Ağasiyev Şabran folklorunu geniş kütləyə çatdırmışdır.

Nəticə:

Nəticə etibarilə Azərbaycan folklor irsinin toplanması və öyrənilməsi məsələsi dövrün aktual problemi kimi qalmaqdadır. Tədqiqat obyekti kimi seçdiyimiz Şabran musiqi folkloru daha az öyrənilmiş sahələrdən biridir və mövcud boşluqların doldurulması məqalənin elmi-təcrübi əhəmiyyətini artırmış olur. Şabranda əldə etdiyimiz folklor nümunələrinin təhlili aşağıdakı kimi təsnifat aparmağa imkan verir:

Cədvəl №1. Şabran mahnı və rəqsləri

№	Mahnılar	Rəqslər
1	toy mərasim mahnıları	sözlü yallılar
2	əmək mahnıları	mərasim mahnı-rəqsləri
3	mövsüm mərasim mahnıları	süjetli rəqslər
4	lirik mahnılar	instrumental rəqslər

Şabran musiqi folklorunda mahnı və rəqsin vəhdəti ilə səciyyəvi olan nümunələr çoxluq təşkil edir. Buraya həm mahnı-rəqslər, həm də sözlü yallılar daxildir. Əksər nümunələrin poetik məzmunu onların mərasim folkloru ilə bağlılı-

ğını üzə çıxarır. Bu nümunələr, o cümlədən “Yel baba” nəğməsi, “Biçinçi yallısı”, “Bahar gəlir” yallısı, həm əmək prosesi, həm də müxtəlif mərasimlərlə bağlı süjet xəttinə malikdir. Beləliklə də, bir folklor nümunəsinin daxilində biz həm qədim mərasim ənənələrini, həm süjetli rəqsin meyarlarını, həm də əmək mahnı və rəqslərinə məxsusluğunu müşahidə edə bilirik. Bu mənada “Biçinçi yallısı” xüsusilə qeyd olunmalıdır. Bu yallıda həm xor oxuması, sözlü rəqslər, instrumental qaytağı tipli rəqs, yallı, mövsüm mərasiminin müxtəlif mərhələlərini (əkin, biçin, məhsul yığımı, taxıl yığımı və s.) əks etdirən xalq teatr ənənələri öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, bu cür nümunələr folklor yaradıcılığında az sayda rast gəlinir və onların əksəriyyəti unudularaq yaddan çıxmışdır. “Xırmançı” rəqsi də bilavasitə mövsüm və əmək prosesi ilə bağlı nümunədir. Süjetli rəqs olmasa da, bu folklor nümunəsinin əkinçiliklə bağlılığı və arxaik folklora aid olması şübhə doğurmur.

Şabran folklorunda poetik mətnlə ifa edilən bütün nümunələrdə biz xor oxumasını, eləcə də solist və xor ifasını müşahidə edirik. Bu tərz folklor nümunələri Azərbaycanın digər bölgələrində də müşahidə olunsa da, Şabran folklorunda üstün mövqe daşıyır. Bu da həmin nümunələrin xalq yaradıcılığının daha erkən dövrlərinə aid olmasının göstəricisidir. Həm mərasim folklorunda, həm də mövsüm, əmək mahnılarında xor oxuması ilk növbədə kollektivçiliyin, birgə əməyin yüngül və məhsuldar olması məqsədinə xidmət edən ideyaların tərənnümü əsas yer tutur. Şabran folklor irsində xalqın həm zəhmət prosesində, həm də şənliklərdə birlikdə iştirak etməsi, bir-birinə dəstək olması, ata-babalardan qalan ənənələrə sadiqliyi təhlil etdiyimiz mahnı və rəqslərdə öz əksini tapmışdır.

Şabran həm də instrumental xalq ifaçılığının geniş intişar tapdığı bölgələrdən biridir. Burada zurna, balaban, zərb alətləri ifaçılarının peşəkar yaradıcılığı bilavasitə xalq rəqslərindən təşkil edilmiş repertuar ilə tərənnüm olunur. Onlar tərəfindən xalqın folklor irsinə məxsus rəqslər yaşadılaraq el şənliklərində böyük şövqlə ifa olunur. Təqdim edilən məqalədə Azərbaycanın şimalında yerləşən və özünəməxsus zəngin folklor ənənələri ilə seçilən Şabran rayonunun xalq musiqisi nümunələrinin toplanaraq tədqiq edilməsi həm orijinal, həm də mövcud nümunələrin yeni variantını əhatə edir. Bu da məqalənin mövzusunu və aparılan təhlillərdən əldə edilən nəticələri aktuallaşdırır. Şabran folkloru Azərbaycan xalq mədəniyyətinin zəngin və çoxqatlı təzahürüdür. Bölgənin musiqi və rəqs ənənələri yalnız estetik baxımdan deyil, həm də sosial-mədəni və etnoqrafik xüsusiyyətləri ilə fərqlənir. Əmək, mərasim, lirik və yumoristik mahnılar, yallılar və rəqslər xalqın həyat tərzini, adət-ənənələrini və dünyagörüşünü əks etdirir, eyni zamanda mahnı-rəqs vəhdəti, xor ifası və ritmik strukturu ilə ümumazərbaycan folklor sistemində xüsusi yer tutur.

Şabran musiqi folkloru kollektiv ifa ənənələrini yaşadan bölgə kimi sosial inteqrasiya funksiyası ilə insanları birləşdirir, həmrəyliyi və milli mədəni kimliyi gücləndirir. Aparılmış tədqiqatlar hələ qismən xarakter daşısa da, Şabran folkloru

milli musiqi elminin, etnoqrafiyanın və mədəniyyətşünaslığın inkişafı üçün imkanlar yaradır və folklorun həm tarixi, həm də müasir mədəni yaddaş kimi əhəmiyyətini vurğulayır. Tədqiqatın nəzəri və praktik əhəmiyyəti təhlilə cəlb edilən folklor nümunələrinin milli musiqi irsinin öyrənilməsi baxımından mahiyyətini əks etdirən elmi araşdırmalar üçün dəyərli material olması ilə ölçülə bilər. Məqalədə təqdim edilən folklor nümunələri həm də folklor və özfəaliyyət ansamblarının repertuarına daxil edilərək onların janr tərkibini zənginləşdirə bilər.

ƏDƏBİYYAT:

1. Abbasova, F.Ə. Şabran (Tarixi-arxeoloji tədqiqat). Bakı: Elm, 2002, 280 s.
2. Abbasova, F.Ə. Şabran (Şabran şəhərinin tarixi-arxeoloji tədqiqinə dair materiallar). Bakı: Elm, 2009, 364 s.
3. Bayramlı, Z.Z. Dünyaya açılan pəncərə. Bakı: Müəllim nəşriyyatı, 2017, 456 s.
4. Bəhmənli, R.B. Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətləri. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı: 2018, 157 s.
5. Hacılı İ. Möhtəşəm Çıraqqala. / Mədəniyyət qəzeti. Bakı, 2010, 28 iyul, S. 9. 05.22.2026 / URL: https://www.anl.az/down/meqale/medeniyyet/2010/iyul/128825.htm
6. Hacıyev, M.İ. Azərbaycan tatlarının dili. Bakı: Mütərcim, 2009, 548 s.
7. Hüseynova, G.İ. Tat dilinin lüğət tərkibinin leksik-semantik təhlili. Bakı: Elm və təhsil, 2014, 98 s.
8. Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Apostrof, 2010, 176 s.
9. Hüseynova, Z.R. Dəvəçi rayonunda zurna ifaçılığı ənənələri. Bakalavr dərəcəsi almaq üçün təqdim edilmiş buraxılış işi. Bakı, Azərbaycan Milli Konservatoriyası, 2009, 68 s.
10. Hüseynova, X.R. Azərbaycanın şimal-qərb bölgəsinin musiqi folkloru ənənələri (Quba, Xaçmaz, Şabran rayonları). Magistr dərəcəsi almaq üçün təqdim edilən magistr dissertasiyası. Bakı: Azərbaycan Milli Konservatoriyası, 2013, 98 s.
11. Sultanova M.S "Əfsanələr paytaxtı" Şabran / Mədəniyyət qəzeti. Bakı, 2011, 22 iyul, S. 8. 05.22.2026 / URL:https://anl.az/down/meqale/medeniyyet/2011/iyul/192478.htm

Notoqrafiya

12. Hüseynli, B.X. Azərbaycan xalq rəqs melodiyaları. I dəftər. Yallı [Notlar]. Klavir. Bakı: Azərb.Dövlət Nəşriyyatı, 1965, 42 s.
13. Hacılı, İ. Möhtəşəm Çıraqqala. // Mədəniyyət. - 2010.- 28 iyul.- S. 9. URL:https://www.anl.az/down/meqale/medeniyyet/2010/iyul/128825.htm
14. Hüseynli, B.X. Azərbaycan xalq rəqs melodiyaları. II dəftər, Halay [Notlar]. Klavir. Bakı: Azərb.Dövlət Nəşriyyatı, 1966, 44 s.
15. İsazadə, Ə.İ. Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən. Bakı: Azərbaycan xalq musiqisi, Elm, 1981, s. 5-29
16. İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları. Bakı: İşıq, 1984, 100 s.

17. İsmayılzadə, R.Y. Azərbaycan xalq mahnıları. / Azərbaycan xalq musiqisi. Bakı: Elm, 1981, s. 52-85.
18. Quba-Şabran folklor örnəkləri. I kitab. Bakı: Elm və təhsil, 2013, 328 s.
19. Quliyeva, M.S. Müasir dövrdə Azərbaycanda yaşayan tat etnik qrupunun musiqi mühiti. Magistr dərəcəsi almaq üçün təqdim edilən magistr dissertasiyası. Bakı, Azərbaycan Milli Konservatoriyası, 2019, 83 s.
20. Soltanov, A.C. Tatca-Azərbaycanca Azərbaycanca-Tatca lüğət. Bakı: Qanun nəşriyyatı, 2013, 260 s.

Saytoqrafiya:

21. “Xınayaxdı” folklor kollektivi. Qədim adət-ənənələrimizi yaşadanlar. 05.22.2026 / URL:http://www.anl.az/down/meqale/medeniyyet/medeniyyet_aprel2009/73254.htm
22. Mədəni müxtəliflik. Tat folklorunun izi ilə. 05.22.2026 / URL:https://multikultural.az/az/medeni-muxteliflik/122/tat-folklorunun-izi-ile/
23. "Xınayaxdı" Tat Folklor Xalq kollektivi, Sheki Karvansaray, 3 iyul 2015 ci il. 05.22.2026 / URL: https://www.youtube.com/watch?v=s0cJugAD0yI

Sahə materialı:

24. Ağasiyev Bayram. Şabran rayonu, General Şıxlinski küçəsi ev 19`da aparılmış müsahibənin materialları. Şabran, 14 fevral 2024-cı il, saat 17:00. [Müəllifin şəxsi arxivi].